# "Qalmaqala meyilli insan deyiləm"

## Ruslan Zərbəliyev: "Paxıl insanlar hər zaman var"

*"Heç bir zaman tardan küsməmişəm. Niyə küsüm ki? Onu sevmişəm, seçmişəm və o da məni pis vəziyyətdə qoymayıb. Tar çox hissiyyatlı alətdir, ona bir az diqqət göstərməyəndə səndən küsür. Bir-iki gün onu ifa etməyəndə hiss edirsən ki, səndən küsüb. Tar sevir ki, ona diqqət göstərilsin". "Ədalət" qəzetinin qonağı tarzən Ruslan Zərbəliyevdir.*

**-Ruslan, zəhmət olmasa, özünüzü təqdim edin...**

-İsmayıllıda anadan olub orada da musiqi məktəbinə getmişəm. Daha sonra Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində təhsil almışam. 2010-cu ildən 2014-cü ilədək muğam sənəti kafedrasında konsertmeyster işləmişəm. 2014-2016-cı illərdə magistr təhsili almışam. Hazırda xalq çalğı alətləri kafedrasında həm muğam, həm də ixtisas-not müəllimi kimi çalışıram. Universiteti oxuduğum illərdən peşəkar səhnəyə çıxmışam, xanəndələrlə çalışmışam. Arzusunda olduğum xanəndələrin çoxsunu müşayiət etmişəm. Ölkəmizi dünyada təmsil edən muqiçilərdənəm. Almaniya, Hollandiya, Slovakiya, Macarıstan, Ruminiya, Bolqarıstan, Moldova, Qazaxıstan, Qırğızıstan, Rusiya, Türkiyə kimi ölkələrdə qastrol səfərlərində olmuşam, çıxışlar etmişəm.

**-Necə oldu ki, ifaçılığa meyil göstərdiniz?**

-İfaçılığa meyil deyəndə, əgər sənəti istəyirsənsə, onu seçirsən. Düzdür, elə sənətçilər də var ki, təhsil almasına baxmayaraq ifaçılıqla məşğul olmur, başqa sahələrdə özünü sınayır, məndə isə belə olmayıb. Həmişə sənəti sevmişəm, böyük ustadları dinləmişəm. Məqsəd olandan sonra hədəflərini müəyyən etməyə başlayırsan və əziyyət çəkirsən.

**-Ailədə sizdən başqa musiqiçi var?**

-Bəli, var.

**-Bir çox musiqiçinin həyatında sevdiyi bir əsər, nəğmə olur. Sizdə bu hansıdır?**

-Sevdiyim musiqilər kifayət qədərdir. Amma ruhuma yaxın olan daha çox muğamlardır. Düzdür, bütün janrları dinləyirəm, amma ən çox muğamları sevirəm. Azərbaycan bəstəkarlarının elə əsərləri var ki, onları dinləməkdən zövq alıram. Məsələn, Cahangir Cahangirovun "Ana" əsəri mənim üçün zirvədədir. Elə vaxt olur ki, bu əsərə bütün günü qulaq asıram.

**-Çox əziyyət çəkmisiniz?**

-Sənətdə əziyyətlərim olub. Bu sənət elə bir sənətdir ki, əziyyətsiz mümkün deyil. Əziyyət çəkmədən ortaya hansısa bir iş qoya bilmərsən,



yüksələ bilmərsən, sənətin inkişaf edə bilməz. Tar sənəti zəhmət tələb edən bir sənətdir. İfaçı hər gün məşq etməlidir. Fikrimcə, əziyyətsiz heç bir şey yoxdur. Əziyyət çəkib bəhrəsini mütləq ki, görürsən. Sənəti ilk növbədə sevmək lazımdır, daha sonra onun yolunda çətinliklərə qatlaşmaq.

**-Digər sahələrdən fərqli olaraq incəsənətdə qalmaqallara daha çox rast gəlinir. Qalmaqallarla tez-tez üzləşirsiniz?**

-Muğama yaxın olduğumuz üçün qalmaqal ruhumuzda yoxdur. Sənətlə məşğul olmayanda qalmaqal fikirləşirsən. Bizdə elə bir vaxt yoxdur ki, qalmaqal edək. Ona ayıracağımız vaxtı sənətə sərf edirik. O qədər öyrənməli şeylər var ki, heç qalmaqala vaxt qalmır. Təbiətcə də qalmaqala meyilli insan deyiləm.

**-İnsan uğurlar qazandıqca onun paxıllığını çəkənlər də olur. Bu gün paxıllığınızı çəkən çox adam var?**

-Paxıl insanlar hər zaman var. Olur ki, nələrəsə nail olursan, iş görürsən, səni qəbul etmirlər. Şükür Allaha ki, ətrafımda elə insanlar çox yoxdur. Yanımda olan insanlar xaraktercə mənə yaxın olduqları üçün paxıl deyillər. Bəlkə də, mən hiss etmirəm. Hərənin bir missiyası olduğu kimi, paxıl insanların da missiyası var.

**-Bu sənəti yaxşı mənimsəməkdə kimə borclusunuz?**

-Tar sənətini mənimsəməkdə bütün ustadlara borcluyam. İlk növbədə isə İsmayıllıda müəllimim olmuş Elşən Süleymanova borcluyam. Başlanğıcı ondan öyrənmişəm. Mədəniyyət və İncəsənət Universitetində isə müəllimim böyük sənətkar Vamiq Məmmədəliyev, ixtisas-not müəllimim isə Gülağa Zeynalov olub. Ustadların hər birindən nələrsə mənimsəmişəm. Şərt o deyil ki, kimsə üzbəüz müəllimin olsun. Onları dinləmək belə bəs edir. Tar sənəti elə bir sənətdir ki, öyrənməklə tükənmir. Gərək onu daim öyrənəsən.

**-Hazırda sizə desələr ki, bir parça mahnı ilə tarda özünüzü ifadə edin, hansı nəğməni ifa edərsiniz?**

-Düzdür, hər bir ifaçının sevdiyi musiqilər var, amma hər an da onu ifa etmək olmur. Ana, vaxta, əhval-ruhiyyəyə görə dəyişir. İndiki anda gərək alət sinədə olsun ki, hansısa bir mahnını ifa edim. Hər anın öz musiqisi var.

**-Heç olubmu ki, tardan küsəsiniz?**

-Heç bir zaman tardan küsməmişəm. Niyə küsüm ki? Onu sevmişəm, seçmişəm və o da məni pis vəziyyətdə qoymayıb. Tar çox hissiyyatlı alətdir, ona bir az diqqət göstərməyəndə səndən küsür. Bir-iki gün onu ifa etməyəndə hiss edirsən ki, səndən küsüb. Tar sevir ki, ona diqqət göstərilsin.

**-Çox sağ olun ki, vaxtınızı ayırıb müsahibə verdiniz. Dəvətimi qəbul etdiyiniz üçün təşəkkür edirəm.**

-Siz sağ olun.

**Rövşən Tahir**

Ədalət.- 2020.- 10 sentyabr. S. 8.